## Murad Orucov

*1982-ildə Şamaxı rayonun Çuxuryurd kəndində anadan olub. Deyir ki, bu işdə hər gün nəsə öyrənmək mümkündür.*

***M.O.*** Uşaqlıqdan fotoya marağım var. Çünki atam həvəskar fotografiya ilə məşğul idi. Evdə həmişə "Sovet fotosu" jurnalları olardı. Hətta atam bir otağın divarını oboy əvəzinə o jurnaldan kəsilmiş ən maraqlı şəkillərlə bəzəmişdi. Atam o vaxt Şamaxı Astrofizika Rəsədxanasında çalışırdı. Orada günəşin və ulduzların müşahidə nəticələri xüsüsi laboratoriyalarda şüşə plastiklərin üzərində çap olunurdu. Demək olar ki, uşaqlığımın bir hissəsini o laboratoriyalarda, qırmızı işığın altında və foto fiksajların arasında keçirmişdim. Böyüdüm və foto ilə yollarım bir az ayrıldı. Müxtəlif yerlərdə çalışırdım. Sonra Cosmopolitan Azərbaycan jurnalında foto redaktor, daha sonra texniki direktor vəzifəsinə dəvət aldım. Orada foto stoklarnan işləməyi, fotoları müasir üslubla redaktə etməyi və çapa hazırlamağı öyrəndim. Elə o vaxtdan demək olar ki, fotoya qayıtdım, özümə həvəskar fotoaparat alıb müxtəlif süjetlər çəkirdim. Həm də jurnal üçün fotosessiyalarda məsləhətçi kimi iştirak edirdim. Jurnal bağlanandan sonra Dövlət Aerogeodeziya Müəssisəsinin fotoqrammetriya şöbəsində çalışırdım. Orada təyyarə və dronla



çəkilmiş şəkillərin əsasında xəritələr üzərində işləyirdim. 2005-ci ildə Azərbaycanda Sputnik beynəlxalq informasiya agentliyinin redaksiyası açılmışdı və mənə iş təklifi olundu. Moskvada tanınmış fotoqraflar tərəfindən treninqlərdən sonra işə başladım və bu günə kimi orada çalışıram. Bu müddət ərzində respublikada keçirilən böyük beynəlxalq tədbirləri çəkmişəm. Azərbaycan Fotoqraflar Birliyi tərəfindən 2019-cu ilin "İlin fotoreportyoru" nominasiyasına layiq görülmüşəm.

Jurnalistikada fotoqraf olmağın üstünlüyünə gəlincə ölkədə demək olar ki, bütün ən maraqlı tədbirlərdə öndə olursan. Bəzən çox az adamın iştirak etdiyi hadisədən fotolar almaq imkanın olur. Bu çox maraqlıdır. Bir şəkillə anı ya da bütöv hadisəni təsvir edə bilirsən.

Fotoqrafiya jurnalistikanın perspektiv sahəsidir, çünki müasir vizual jurnalistikanın tərkib hissəsidir. Son vaxtlar adamlar oxumaqdansa video və foto xəbərlərə baxmağa daha çox üstünlük verir, bu səbəbdən fotoreportyorlar şəkillərin maksimum informativ və maraqlı olmasına çalışmalıdırlar.

Deməzdim ki, işləmək çətinləşib... Karantin nəzərdə tutulubsa, demək olar ki, yox. Sadəcə ölkədə planlaşdırılan beynəlxalq tədbirlər, idman yarışları təxirə salındığına görə çəkilişlərin sayı azalıb. Çalışırdım ki, karantinlə bağlı bütün baş verənləri çəkim, çünki bu tarixi bir hadisədir. Müasir tarixdə birinci dəfədir ki, bütün sərhədlər bağlanıb və karantin rejimi tətbiq edilib. Düzdü, bəzən qorxulu idi, amma çalışırdım özümü qoruyum və gigiyenik tələblərə riayət edim. Sərt karantin günlərində də şəhərin küçələrini çəkdim. Bakını belə boş və səssiz birinci dəfə görürdüm. Gördüklərim və çəkdiklərim həyatımın axırına kimi yadımda qalacaq. Psixoloji cəhətdən bu çox təsirlidir.

Fotoqrafiyada müəllimdən söz düşüncə... İdman fotosuna marağım daha çox olduğuna görə bir sıra idman fotoqraflarını izləyirəm və onların çəkilişlərindən nümunə götürürəm. Bu sırada Bob Martin, Adam Pretty, Vladimir Pesnya kimi fotoqraflar var. Ümumiyyətlə, hər təcrübəli fotoqrafdan nəsə öyrənməyə çalışıram. Hətta dost fotoqraflardan demək olar ki, hər gün təzə bir şey öyrənirəm, həm foto çəkilişində, həm də şəkillərin redaktə prosesində. Bir neçə il qabaq foto üzrə kitabları əldə etmək çətin idi, internetdən sifariş etmək lazım gəlirdi, qiymətləri də baha... Amma indi YouTube video şəbəkəsində yetərincə təlimat videoları var. İstər həvəskar fotoqraflar üçün, istər də peşakar fotomüxbirlər üçün.

Bir də çalışıram nüfuzlu agentliklərin fotoqraflarını izləyim, məsələn Reuters, Associated Press və s. Onlar üçün dünya üzrə peşakar fotoqraflar çalışır və onların işlərini izləyərkən fotoreportaj hazırlığında çox şey öyrənmək olar.



**"Formula 1"**



## *Ramil Zeynalov*

*1986-cı ildə Bakı şəhərində anadan olub. Deyir ki, fotoqrafiyaya marağı ona atası aşılayıb.*

***R.Z.*** Demək olar ki, uşaqlığımın bir hissəsi atamla qaranlıq otaqda şəkil aşkarlamaqla keçib. 2008-ci ildən isə özüm işləməyə başladım. On ildən artıqdır ki, fotomüxbir kimi ölkənin iki ən aparıcı xəbər agentliyində çalışmışam. Əsas janırım sənədli fotoqrafiyadır. Azərbaycanda keçirilən bir çox nəhəng tədbirləri, o cümlədən 2012-ci ildə 57-ci Avroviziya Mahnı Müsabiqəsi, Baku 2015 1-ci Avropa Oyunları, Bakı 2017 IV İslam Həmrəyliyi Oyunları, 2019-cu ildə XV Avropa Gənclər Yay Olimpiya Festivalı, UNESKO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyasını və digər beynəlxalq tədbirləri işıqlandırmaq mənə də nəsib olub. Bundan əlavə yerli və beynalxalq foto yarışlarda iştirak edib mükafatlar əldə etmişəm. Bir neçə fotom Avropa ölkələrində sərgilərdə yer alıb.

“Fotoqraflıq jurnalistikada insana nə üstünlük verir” sualına məhşur fotojurnalist Reza Deqatinin sözləri ilə cavab verərdim: Fotojurnalistka demək olar ki, jurnalistikadan öncə yaranıb. Buna misal dünyanın bir çox yerlərində qayalara gündəlik həyatdan, ya da böyük törənlərdən rəsmlərin həkk olunmasıdır. Beləliklə deyə bilərik ki, qədim insan fotojurnalistlik edib. Sadəcə onların alətari müxtəlif olub. Bu alətlər qayalar və onları cızmaq üçün daşlar olub. Bu insanları öz dövürünün fotojurnalisti adlandırmaq olar. Qaya üzərindəki rəsmlərdən onların həyat tərzini bilmək olur. Bu günkü gündə jurnalistikanı fotosuz təsəvvür etmək mümkün deyil. Çünki insanlar hansısa hadisənin xəbərini açan kimi ilk fotolara göz gəzdirir, xəbəri sanki fotolardan oxumağa başlayır. Fotonun jurnalistika işində üstünlüyü odur ki, çəkilən hadisələri vaxtında ictimaiyyətə çatdırmaq olur. Fotojurnalistika budur əslində. Minimum foto, maksimum xəbər. Foto həm də dondurlmuş zamandır. Jurnalistikada bu çox vacibdir. Bir hadisə bu gün çəkilibsə 50 il sonra həmin fotoya baxıb bu günki kimi xatırlamaq olur. Yenə də Reza müəllimin sözü olmasın, bəlkə 50 il, bəlkə 5 il, ya 2 ilə fotokamera ailəti dəyişəcək yenisi ixtira olunacaq və biz yeni alətlə gerçəkliyi əks etdirə biləcəyik. Bütün bu dəyşiklərə rəğmən biz fotojunalistlər 45 min il bu işlə məşğul olan insanların gördükləri işi davam etdirənlər olaraq qalacağıq.

Qaldı ki, İşləmək çətinləşib yoxsa... Bu günkü gündə deməzdim ki, işləmək çətinləşib. Bizim işin ən çətin tərəfi hadisəyə vaxtında yetişməkdir. İnsanlara maraqlı deyil ki, sən fotonu hansı şəraitdə çəkirsən, hansı çətinliklərlə üzləşirsən. İşin çətin tərəflərindən biri də məhz budur. Ən dəhşətli hadisələri çəkib bitirəndən sonra şəkillərin seçimi və redaktə prossi başlayır. Bax o zaman daha bir çətinliklə qarşılaşırsan. Yanmış insan, kimsəsiz uşaqlar, avtoqəza, təbiət hadisələri, fövqaladə vəziyyətlər və s. bu kimi fotoları çəkdikdən sonra əsl çətinlik yaranır. Çəkiliş zamanı o hissləri düşünə bilmirik. Çünki bütün fikrimiz yalnız çəkilişdə olur. Hər şey bitdikdən insan özünə qayıdır və o fotolara baxanda hər şeyin bir daha fərqinə varır.

Təbii ki, müəllimsiz olmaz! Azərbaycan fotoqrafiya tarixində bir çox peşəkar fotoqraflar olub və hazırda da var. Lakin mən həmişə yalnız bir nəfəri, gözəl insan, peşəkar fotoqraf Məmməd Rəhimovu özümə müəllim bilmişəm. Ömür boyu da belə qalacaq. Peşəkar fotoqrafiyaya təzə başlayanda bir çox sirləri, fəndləri ondan öyrənmişəm. Günün bu günü də ondan öyrənirəm. Təkcə mən yox, digər fotoqraflar da ondan öyrəniblər və öyrənirlər. Sadəcə kimsə bunu etiraf etməkdən çəkinir. Belə şeydən çəkinmək lazım deyil.Axı burda nə var? Məmməd müəllimlə işləmək, eyni tədbirdə çəkiliş etmək bizim üçün fəxrdir. Onun hər fotosunda dinamika var, mövzu var, fərqlilik var. Bu cür insanlardan, onların biliyindən, təcrübəsindən maksimum istifadə etmək lazımdır.

Bu gün hansı sahə daha maraqlıdır və mən davamlı olaraq burda olacağam, yoxsa.. ya gəlincə... Sosial fotolar hər zaman maraq çəkir və nə qədər ömrüm varsa bu işə həsr etməyi düşünürəm. Çünki fotoqrafiyasız özümü təsəvvür edə bilmirəm. Bir portret ilə bir insanın həyat tərzini bilmək olur. Bu sahədə ən maraqlı məqam odur ki, çəkirsən və paylaşırsan. Çünki #ŞƏKİLÖZÜDANIŞIR. ❖

**Zöhrə Əliyeva**



**“Kimsəsiz”**